# Sən "Maarifçi"sən?

## Mətin KƏRİMLİ: "Dəstəkləyici bir mühit yaradacağıq ki, burada səhvlərdən öyrənmək və təşəbbüsləri reallaşdırmaq mümkün olacaq"





İyunun 24-də sayca üçüncü olan "Maarifçi" tələbə-məzun təcrübə proqramı növbəti mərhələsi start götürüb. Bu dəfə 49 gənc Elm və Təhsil Nazirliyində, onun struktur bölmələrində və tabe qurumlarında, regional təhsil idarələrində, eləcə də Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübəyə başlayıb.

**"Maarifçi" 49 namizədlə yola davam edir**

Qeyd edək ki, III "Maarifçi" tələbə-məzun təcrübə proqramının ilkin qeydiyyat mərhələsi bu il aprel ayının 9-dan start götürüb və 10 gün ərzində 3542 müraciət daxil olub. Növbəti mərhələyə uğurla keçən 2037 nəfər test imtahanı mərhələsində iştirak edib. Müvafiq sahələr üzrə keçid balını toplayan 318 namizəd mayın 29-dan etibarən Elm və Təhsil Nazirliyinin müxtəlif struktur bölmələri, tabe qurumlarının, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin əməkdaşlarının birgə müsahibəsində iştirak edib. Uğurlu hesab edilən 49 namizəd proqramda iştirak etməyə haqq qazanıb.

Xatırladaq ki, "Maarifçi" proqramını Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondu həyata keçirir. Tələbə və məzunlar üçün təcrübə proqramıdır və elm, təhsil sahəsində insan resurslarını formalaşdırmaq, tələbə və məzunların praktiki bilik və bacarıqlarını artırmaq, həmçinin təhsil islahatları prosesinə dəstək olmaq məqsədilə reallaşdırılır.

Proqramda iştirak etmək üçün elm və təhsil sahəsində karyera qurmağı hədəfləyən, bakalavr səviyyəsinin IV kurs, eləcə də magistratura tələbələri və son 3 il ərzində məzun olan şəxslər müraciət edə bilir. "Maarifçi" proqramı ildə iki dəfə təşkil olunur. Proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyinin Aparatı, tabeli qurumları və regional təhsil idarələrində təcrübə keçmək imkanı əldə edirlər.

"Maarifçi" tələbə-məzun təcrübə proqramının işçi qrupunun icraçı katibi Tünzalə Vəliyeva "Azərbaycan müəllimi"nə məlumat verib ki, test imtahanı və müsahibə mərhələsindən uğurla keçən 49 nəfər iyunun 24-dən Elm və Təhsil Nazirliyində və onun ayrı-ayrı struktur bölmələrində və tabe qurumlarında təcrübəyə başlayıb. Bu il proqram bütün regional təhsil idarələrini, Naxçıvan Muxtar Respublikasının Elm və Təhsil Nazirliyini əhatə edir.

**Niyə "Maarifçi"?**

Təcrübə 4 ay davam edəcək. 3 mərhələli mübarizəni uğurla başa çatdıran gənclər arasında jurnalistika, hüquq, maliyyə, müəllimlik, kompüter proqramçısı, kompüter mühəndisliyi, vergi və s. ixtisaslara yiyələnən gənclər var. Bu mərhələ iştirakçı sayına və əhatə dairəsinə görə ən böyükdür. Artıq bütün ölkəni əhatə edən "Maarifçi"nin nüfuzu haradan qaynaqlanır? Gənclər niyə "Maarifçi" olmağa bu qədər həvəslidir? Onlar "Maarifçi"dən nə gözləyir?

Biri üçün "Maarifçi" təcrübə, başqası üçün yeni imkanlar deməkdir. Proqramda iştirakı uğurlu karyeranın başlanğıcı hesab edənlər də var. "Maarifçi" olub yeniliklərə yelkən açmaq, hətta müvəffəqiyyət, peşəkar inkişaf, bir kadr kimi formalaşmaq, tərəqqi, bacarıqları təkmilləşdirərək gördüyü işə dəyər qatmaq istəyənlər də var.



Anar HÜSEYNLİ



Ayşən İSMAYILOVA



Cavidan HACIƏLİYEV



Səma PƏNAHOVA

### "Məqsədlərimdən biri gələcəkdə təhsil sahəsində fəaliyyət göstərmək olduğundan burada qazanacağım təcrübənin mənim üçün ciddi əhəmiyyəti var"

49 nəfərdən biri Anar Hüseynlinin fikrincə, "Maarifçi" tələbə-məzun təcrübə proqramının onun uğurları siyahısında xüsusi yeri var. O, səbəbini belə izah edib: "Mərkəzi icra hakimiyyəti orqanları içərisində Elm və Təhsil Nazirliyi belə bir imkan qazandırır. Özü də yalnız nazirlikdə deyil, onun struktur bölmələrində təcrübə keçmək imkanı əvəzedilməzdir. Məqsədlərimdən biri gələcəkdə təhsil sahəsində fəaliyyət göstərmək olduğundan burada qazanacağım təcrübənin mənim üçün ciddi əhəmiyyəti var".

Onun üçün əhəmiyyətli bu proqrama qoşulmaq çətin olmayıb ki? Anar Hüseynli Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisası üzrə IV kurs tələbəsidir. Dediyinə görə, sadəcə son 4 il ərzində əldə etdiyi nailiyyətlər "Maarifçi"lərdən ola bilməsi üçün baza təşkil edib: "Hüquqi sahədə müxtəlif müsabiqələrə qatılmışam, uğurlarım olub. Bir çox təcrübə proqramlarında uğurla iştirak etmişəm. IELTS imtahanına qatılaraq mənə lazım olan nəticəni əldə etmişəm".

Nailiyyətlərinin "Maarifçi"də də davam etməsi hazırda ən böyük hədəfidir. Onun üçün də təcrübə dövründə həyata keçirməyi planlaşdırdığı bəzi layihələr var: "Daim çalışmışam ki, yeni layihələrlə çıxış edim. Hüquq sahəsində təhsil alan tələbələr, eyni zamanda şagirdlər üçün Dövlət İdarəçilik Akademiyasının Tələbə Gənclər Təşkilatı nəzdində "Hüquq klubu", "Gənc hakimlər" müsabiqəsi və başqa layihələrin həyata keçirilməsini təşkil etmişəm. Məktəblilərin peşə seçimində düzgün istiqamətləndirilməsi məqsədilə onlarla görüşlərimiz olub. Bu innovativliyi təhsil sahəsində keçirəcəyim 4 ay ərzində də tətbiq edəcəyəm. Gələcəkdə özümü məhz bu sahədə görmək istədiyim üçün bütün fəaliyyət sahələri ilə tanış olmaq imkanı qazandıran belə bir fürsətdən maksimum yararlanacağam. Növbəti 4 ay ərzində biz "Maarifçi" tələbə-məzun təcrübə proqramında iştirak etməklə həm öz ixtisasımız üzrə yeni bilik və bacarıqlar əldə edəcək, həm də geniş əlaqələr quracaq, öz innovativ yanaşmamızı tətbiq edə biləcəyik".

### "Ən böyük təcrübə imkanını bu proqram verir"

Bakı Dövlət Universitetinin "Jurnalistika" ixtisası üzrə tələbəsi Səma Pənahova bu proqramda indiyədək əldə etdiyi nəzəri bilikləri təcrübə ilə möhkəmləndirməyi arzulayır: "AzTV, "Azərbaycan müəllimi" qəzetində təcrübə keçmişəm. Medianın İnkişafı Agentliyində, COP29-da könüllü fəaliyyət göstərmişəm və bunların "Maarifçi"yə seçilməyimdə də böyük rolu oldu".

"Maarifçi" olmağı isə çox arzulayıb: "Ən böyük təcrübə imkanını bu proqram verir. Məncə, hər tələbənin, hər məzunun əldə etməyi arzuladığı fürsət indi mənim əlimdədir. Mən də bu imkanı layiqincə dəyərləndirəcəyəm".

### "Çox uğurlu insanlar var ki, onlardan çox şey öyrənərəm"

Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" ixtisası üzrə magistri Ayşən İsmayılova sosial layihələrə qoşularaq fəal tələbəlik həyatı yaşayıb, təcrübə proqramlarına qatılaraq fərqli istiqamətlərdə püxtələşməyə çalışıb: "İrəli" İB-də layihələrin idarə edilməsi üzrə təcrübə proqramında iştirak etmişəm, COP29 könüllüsü olmuşam. Kənd Təsərrüfatı Nazirliyində İnsan resursları şöbəsində təcrübə keçmişəm. Treninqlərdə, konfranslarda iştirak etmişəm. Mart ayında Elm və Təhsil Nazirliyinin təşkilatçılarından olduğu "Diplomatiya kampı"nda olmuşam. Bu fəaliyyətlərdə fəal iştirakım "Maarifçi"də də uğur qazanmağıma səbəb oldu".

"Maarifçi"də daha əvvəl iştirak etməyə çalışsa da, indiyədək buna nail olmayıb: "Bu proqram həyata keçirildiyi ilk gündən onun barəsində məlumatlı idim. I "Maarifçi" həyata keçiriləndə IV kursda oxuyurdum, imtahanlar vaxtına düşdüyündən iştirak edə bilmədim. Proqrama qəbul ikinci dəfə elan olunanda da qatıla bilmədim. Nəhayət, bu dəfə müraciət edə bildim və seçildim".

Ayşənin bu proqrama qatılmaq üçün öz səbəbləri var: "Elm və Təhsil Nazirliyində dövlət qulluqçusu olan çox uğurlu insanlar var ki, onların fəaliyyətini sosial şəbəkələrdən həvəslə izləyirəm və düşünürəm ki, yaxın olmaqla onlardan daha çox şey öyrənə bilərəm".

### "Bu dəfə məqsədimə nail oldum"

Cavidan Hacıəliyev Bakı Dövlət Universitetinin tələbəsidir. SABAH qruplarında "Kimya müəllimliyi" ixtisası üzrə təhsil alır: "Müxtəlif istiqamətlərdə təcrübələrim var. Gənclərin İnkişaf və Karyera Mərkəzində 6 aylıq təcrübəmi uğurla başa vurmuşam, pedaqoji təcrübələr toplamışam, Türk dünyası Bakı Atatürk liseyində pedaqoji təcrübədə olmuşam. SABAH-ın bütün tədbirlərinin fəal iştirakçısıyam və hesab edirəm ki, bunlar "Maarifçi" olmağıma da kifayət etdi".

Şahmat üzrə yarışlarda, intellektual oyunlarda da iştirak edib nailiyyətlər əldə edən Cavidan Hacıəliyev deyir ki, elə bu bacarıqları sayəsində həyatda da uğur qazanır: "Şahmat beyni yoran və alternativlər axtarmağa məcbur edən bir oyundur. Şahmat həyat kimidir və buna görə də, həyatda baş çıxarmağıma, yeni yollar fikirləşməyimə kömək edir. Bu bacarığımın faydasını ən çox müsahibə mərhələlərində görürəm".

Cavidan "Maarifçi"lərə qatılmaq üçün indiyədək 2 dəfə cəhd edib: "Bu proqram barədə eşitdiyim ilk gündən qarşıma məqsəd qoydum və cəhd etdim. İlk dəfə imtahandan keçmək üçün 3 balım çatmadı. İkinci "Maarifçi" tələbə-məzun proqramının müsahibə mərhələsində iştirak etdim, amma uğur qazana bilmədim. Bu dəfə məqsədimə nail oldum".

İsrarla "Maarifçi"lərə qoşulmaq istəyinin səbəbinə gəlincə, Cavidanın əsas hədəfi yumşaq bacarıqlar əldə etmək və təcrübəsini uğurla başa vurmaqdır: "Ancaq Elm və Təhsil Nazirliyində çalışmaq, buradan iş təklifi almaq ən böyük arzumdur".

### "Siz də öyrənməkdən çəkinməyin"

Ən geniş, ən böyük "Maarifçi" proqramının üzvləri bu həftə Elm və Təhsil Nazirliyinin Aparatında olublar. "Maarifçi" tələbə-məzun təcrübə proqramının işçi qrupunun rəhbəri, Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli ilə görüşdə işçi qrupunun üzvləri, eyni zamanda struktur bölmə rəhbərləri iştirak ediblər.

Mətin Kərimli iştirakçılara proqram və onun məqsədləri barədə məlumat verib, məqsədlərini açıqlayıb: "İstəyirik ki, gənclərlə sistemli və səmərəli ünsiyyət yaradaq və bu, davamlı olsun. Artıq üçüncü dəfə reallaşması proqramın davamlılığını təmin etmişik deməkdir. Bəs nəyə görə ünsiyyət qurmaqda maraqlıyıq? Birincisi, elm və təhsil sistemində olan islahatlar barədə gənclərimizə məlumat vermək istəyirik. Niyyətimiz odur ki, islahatlar barədə məlumatları, sadəcə dinləməsinlər, gənclər birbaşa bu prosesin bir hissəsi olsunlar. İkincisi, gənclərdən öyrənmək istəyirik. Çünki bizim indi verdiyimiz qərarlar sizin həyatınıza sirayət edəcək. Ona görə də təcrübəçiləri də öz həmkarlarımız hesab edirik ki, iş prosesində özünüz də bu münasbəti görəcəksiniz".

M.Kərimli əlavə edib ki, təcrübə gənclərin həyatında çox önəmlidir: "Təklif edirəm ki, siz də öyrənməkdən, soruşmaqdan çəkinməyin. Məqsədimiz odur ki, siz burada düzgün sual verməyi öyrənəsiniz. Səmərəli bir proqram həyata keçirməyə ümid edirik".

Aparat rəhbəri III "Maarifçi" proqramının nəticələrindən gözləntilərini belə ifadə edib: "Bu, həm iştirakçı sayına, həm əhatə dairəsinə, həm də ixtisaslarının sayına görə ən böyük, ən geniş "Maarifçi" proqramıdır. Əminəm ki, nəticəsindən asılı olmayaraq 49 daha hazırlıqlı, daha məlumatlı və maarifçi funksiyasını yerinə yetirən həmkar qazanacağıq".

### Dəstəkləyici mühit

Beləliklə, 49 "Maarifçi" ilə proqram başladı. Gənclər bu 4 ayda çox şey öyrənəcək. Mətin Kərimli onlara yaradılan şəraiti belə ifadə edib: "Dəstəkləyici bir mühit yaradacağıq ki, burada səhvlərdən öyrənmək və təşəbbüsləri reallaşdırmaq mümkün olacaq".

Bu imkanın verildiyi proqram sayəsində 4 ay müddətində təhsil sahəsində iş təcrübəsi qazanacaq gənclər öz gələcəyinə, təhsil sistemi isə onlara ümidlə baxır. Aralarında kimsə təhsil sistemində karyera quracaq, pillə-pillə irəliləyəcək, "Maarifçi" ilə yüksələcək. Yeri gəlmişkən, qeyd edək ki, əvvəlki "Maarifçi" proqramında təcrübə keçən 24 iştirakçı nazirliyin müxtəlif qurumlarında işlə təmin olunub.

Yolu "Maarifçi"dən keçən, amma bu yolda irəliləməyənlər üçün isə bu proqram həyatlarında keçdikləri ən böyük, unudulmaz təcrübə olacaq.

**Ruhiyyə DAŞSALAHLI**